Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

# Azərbaycanın xristian icmaları dünyadakı erməniپərəst xristian təəssübkeşliyinin əleyhinədir...

**Azərbaycan elə bir dövlətdir ki, burada müxtəlif dinlərin azad inkişafı üçün münbit mühit mövcuddur. İslam dini ilə paralel olaraq xristian, yəhidi və başqa dinlərin nümayəndələri heç bir maneə hiss etmədən ölkəmizdə sərbəst şəkildə fəlaiyyətlərini davam etdirirlər. Məlumat üçün bildirək ki, ayrı-ayrı dövrlərdə bütpərəstlik, zərdüştilik, iudaizm, xristianlıq, islam və bir çox başqa dini cərəyanlar ölkədə bu və ya digər dərəcədə yayıla bilib, bir-birinə qarşılıqlı təsir göstərib.**



İndiki dövrdə ölkəmizdə fəaliyyət göstərən islam və qeyri-islam təmayüllü dini icmalar Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsində qeydiyyatdan keçib. Bu dini icmalar arasında 30-dan artıq qeyri-islam icması var ki, onların Azərbaycanda fəaliyyəti yüksək səviyyədə təmin olunur. Məlumata görə, Azərbaycanda Ortodoks konfessiyası, Roma-katolik konfessiyası və sair fəaliyyətdədir. Ölkəmizdə rus provaslav kilsəsi, katolik kilsəsi, Yevangel-lüteran kilsəsi, Yevangel xristian baptist icması, 7-ci gün adventistləri, "Şərqdə ulduz" xristian incil dini icması, Molokan ruhani xristianların dini icması, Alban-udi xristian dini icması və başqaları mövcuddur. Ölkəmizin mənəvi sərvəti və dəyəri olan dini müxtəliflik, dini konfessiyalararası qarşılıqlı anlaşma, hörmət və dözümlülük dünyaya bir nümunədir. Azərbaycandakı dini icmaların bir-biri ilə sülh, qarşılıqlı anlaşma şəraitində ünsiyyət qurması, təbii ki, xaricdəki bəzi qüvvələri ciddi narahat edir...

**Xaricdəki erməniپərəst dini icmaların ağzı daşa dirəndi...**

Bu gün ABŞ və Avropa ölkələrində fəaliyyət göstərən xristian dini cəmiyyətləri erməniپərəst mövqe sərgiləyirlər və onlar Azərbaycana iftiralar atırlar. Bəzi xristian dini icmalar Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsindən ciddi narahat olub və öz xəbisliklərini, antisülh münasibətlərini ortaya qoymaq üçün gecə-gündüz çalışırlar. Azərbaycandakı münbit dini mühiti qaralamaq üçün əllərindən gələni edirlər. Məsələn, ermənilərin Qarabağdan könüllü köçünü xaricdəki xristian dini icmaların bəziləri Azərbaycanda xristianların və xristianlığın "təqibi" kimi qələmə verməyə çalışır. Bir neçə gün əvvəl "Beynəlxalq Xristian Narahatlığı" təşkilatının ("Persecutors of the year") antiazərbaycan hesabatı yayılıb və burada Azərbaycanla bağlı həqiqətə uyğun olmayan iddialar yer alıb. Halbuki, bu hesabatda əks olunanların heç birinin Azərbaycanla əlaqəsi yoxdur. Bu gün xaricdəki erməniپərəst xristian təəssübkeşlərinin fəaliyyətinə qarşı Azərbaycandakı xristian dini icmaları həmişə sərt mövqe tutur, onlar Azərbaycanın mənafelərini müdafiə edirlər. Azərbaycandakı xristian icmaları dəfələrlə antiazərbaycan mövqeli icmalara lazımı cavabı veriblər və onlara faktları göstəriblər. İllərdir ki, erməniپərəst dini qurumlar Azərbaycanı hədəfə alıb ölkəmizə iftira atıb. Təbii ki, Azərbaycandakı xristian icmasının nümayəndələri də buna hər zaman öz etirazlarını biliriblər, birgə bəyanat yayıblar.

**Yalançı iddialara bəyanatla cavab veriləcək...**

Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili "Bakı-Xəbər"ə şərhində bildirdi ki, xaricdəki bəzi erməniپərəst xristian dini icmaları erməni lobbisinin təsiri altında antiazərbaycan qərarları qəbul edir. O, vurğuladı ki, ermənilərin işğal etdikləri Azərbaycan ərazisini tərk etməsini indi başqa cür qələmə vermək istəsələr də, reallıq budur ki, ermənilərin Qarabağı tərk etməsi ölkədə xristianlıq dininin təqib edilməsi anlamına gəlmir, çünki Azərbaycanda belə bir məsələ yoxdur, hər kəs öz dini ilə azad şəkildə məşğul olur. Erməniپərəst qüvvələrin Azərbaycanı qaralamasına ölkədəki bütün xristian icmasının barışmaz mövqe sərgilədiyini deyən müsahibimizin sözlərinə görə, "Beynəlxalq Xristian Narahatlığı" təşkilatının yaydığı məlumatlar həqiqəti əks etdirmir. "Azərbaycanda xristian dini mənsublarına qarşı hər hansı bir təqibdən söhbət gedə bilməz. Hesabat ABŞ-dakı erməni lobbisinin və erməniپərəst qüvvələrin təsiri ilə hazırlanıb. Ermənilərin Xankəndidən İrəvana könüllü şəkildə miqrasiya etdiyi faktdır. Onlar heç bir təzyiqə məruz qalmayıblar. Biz Azərbaycanda fəaliyyət göstərən xristian dini icmaları bəyanat hazırlayırıq" - deyə bildirdi.

Qeyd edək ki, dəfələrlə Azərbaycana iftira atılıb və ölkəmizdə fəlaiyyət göstərən xristiana dini icmalar onlara qarşı barışmaz mövqe sərgiləyib. Məlumdur ki, keçən il Azərbaycandakı protestantlar həm Ermənistanın, həm də onun xaricdəki havadarlarının çirkin təbliğatına etiraz bəyanatı yayıblar. Ermənilərin və erməniپərəst qüvvələrin Laçın yolu şousu barədə onlar da sərt mövqe bildirirdilər. Azərbaycanda fəaliyyət protestant xristian dini icmalarının rəhbərləri bu bəyanatla dünya birliyini, beynəlxalq təşkilatları, nəhayət, ikili standartlardan əl çəkərək həqiqəti görməyə, Azərbaycanın suverenliyinə hörmətlə yanaşmağa çağırırdılar.

Bütövlükdə, Qarabağ torpaqları işğalda olduğu dövrdə də, torpaqlarımız azad edildikdən sonra da xristian dini icması mütəmadi olaraq bəyanatlar yayıblar.

Erməniپərəst qüvvələr bütün hallarda çalışırlar Azərbaycanın bütün xristianlıq irsini ermənilərin adına çıxsın və onları erməni irsi kimi qələmə versin. Halbuki, Azərbaycan torpağında qədim erməni irsi yoxdur, xristian irsi var ki, onun da yiyəsi, sahibi məlumdur. Ermənilər separatizmə, əsassız iddialara yol verməyib normal yaşamaq istəmədilər və nəticədə ölkəmizi könüllü olaraq tərk etdilər. Ermənilərin miqrasiya etməsi o demək deyil ki, Azərbaycanda xristianların yaşaması, dini ibadətlə məşğul olması üçün hər hansısa bir maneə var. heç bir maneə yoxdur və Azərbaycandakı mövcud mühit bir nümunədir. Azərbaycanda fəaliyyət göstərən xristian icmaları da ölkəmizin maraqlarını müdafiə edir, şər-böhtançılara lazımı cavablar verirlər...

***İradə SARIYEVA***

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.***